Elm və təhsil nazirinin müavini Həsən Həsənli Gəncə şəhərinə səfər edib.

Səfər çərçivəsində nazir müavini Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovla birlikdə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Daha sonra Həsən Həsənli bir neçə məktəbəqədər və ümumi təhsil müəssisəsini ziyarət edib, tədris prosesi ilə tanış olub.

Nazir müavini səfər zamanı Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin əməkdaşları, məktəbəqədər və ümumi təhsil müəssisələrinin direktorları ilə görüş keçirib.